Subh həqim bası Mirzə Mehdi evində əjləşib xəstələri kəbyl edirdi. Içəri daxil olan Fərmanı qerəndə təəccub elədi. Fərman salamat, kuvvətli bir oglan sajılırdı, sifətində də heç mərəz nişanəsi qerunməjirdi. Həqim bası ona janında jer qestərdi.

—Qəl-qəl! Nə əcəb sən də mərizlər cumləsinə daxil olybsan? Qəl əjləş qerum dərdin nədur.

Fərman ədəblə əjləşib dedi:

—Həqim bası mənim dərdim bejuq dərddur.

Siz ezunuz qərəq mən dinməmiş biləsiniz. Sizə mə'lymdyr qi, yşaklıkdan əmim hacı Qamjabın evində onyn kızı Qehərtac ilə bir jerdə bejumuşəm. Yşaklıkdan bir-birimizə joldaşlık məhəbbəti jetirmişiq. By məhəbbət axırda ezunun təbii jolyna duşdu. Biz bir-birimizi sevdiq. Dogrydyr mən bejujəndən sonra əmim məni evindən qenitdi. By da təbii idi. Bynynla belə həm mənim və həm Qehərtacın jəkinimiz by idi qi, əmim bizi bir-birimizdən ajırmajacak. Və cəmi kohym-əkrəbanın da jəkini bynda idi. Hamı dejirdi:

—Hacı Qamjabın devlətinin həddi-hesabı jokdyr. Əlbəttə o heç vakt istəməz qi, by devlət qənar bir şəxsin əlinə qeçsin, jəkin kızını ez kardaşı oglyna verəcəq, devlət də jad adama kalmajacakdyr».

Indi Xydajar xana səz verib hətta ondan nişan da kəbyl edibdur. Mən də kalmışam qənarda, əlim kojnymda. Qehərtac da o qundən bəstəri naxoşdyr, onyn heç bir mərəzi jokdyr, məjər inqi eşk.

—Ony mən də jəkin etmişəm. Bəs mənim janıma qəlməqdən məksədin nədur?

—Həqim bası by jerdə siz mənə qeməq verə biləcəqsiniz.

—Mən nə qeməq verə bilərəm?

—Siz Qehərtaca mualəcə edirsiniz, hər qun onynla qerusursunuz. Mənim bircə sifarişimi ona jetirin?

—Nə sifariş? Deqilən jetirərəm.

—Allah sizdən razı olsyn, həqim bası. Mən kət' eləmişəm qi, bir neçə joldaşlarımın qeməqilə ony by qecə aparım, siz



ona ancak dejəsiniz qi, əzandan bir saat qeçmiş, əndərynyn quçə kapısına çıksın.

Həqim bası by təqlifdən bərq hiddətləndi.

—By nə nev' təqlifdur qi, mənə eləjirsən? Sən by təqlifin kəbahətini anlajırsanmı? Mənim bojnyma atdıgın vəzifəni duşunursənmi? Ejib olsyn sənə. Sənin atan Ibrahım bir agıllı qişidur amma sən ona oxşamajıbsan. Əqər Ibrahımın və sənin əmin hacı Qamjabın xatri olmasajdı, sənə çok agır səzlər dejərdim. Dyr byradan zəhmət çəq qet. Qer bir qupə qirən karı tapa bilərsənmi, belə sifarişləri onynla qendərəsən.

Fərman başladı jalvarmaga:

—Həqim bası siz qerursunuz qi, mən cavanam by saat başıma hava vyryb danışdıgımı ezum də bilməjirəm. Məni bagışlajınız, siz həqimsiniz mərizlərə dərman edirsiniz, vakt qi, sizin bircə səzunuz bir cavan mərizi elumdən kyrtaracak, o səzu siz neçə kəbyl etməjirsiniz? Mənə rəhm edin həqim bası, by xırdaca təhfəni də məndən kəbyl edin.

Fərman by səzu ilə atasından aldıgı min tuməni də həqim basının kabakına kojdy.

Həqim bası pylları qerəndə qezləri məş'əldar pişiqin qezləri qibi bərk verdi:

— Ogyl by pyl nahakdyr. Sənin axırqı səzlərin qifajətdur, bir səz qi, bir cavanın diriliqinə səbəb olacak ony deməməq qunahdyr.

—Jok həqim bası, tavakka edirəm kəbyl edəsiniz, by xırdaca təhfə mənim mərizimə mualəcə etməqinizin hakki-zəhməti olsyn.

Həqim bası sifarişi Qehərtaca jetirməqi kəbyl etdi və səz jok qi «xırdaca təhfə»ni də cibinə eturdu.

***

Həqim bası Qehərtac ilə qeruşub əndəryndan çıkdı və kapıda hacı Qamjaba rast qəldi.

Hacı muztərib hal ilə xəbər aldı:

—Həqim bası kızın mərəzini tapa bildinizmi?

—Qezəlcəsinə tapdınm. By qun olsyn qi, ajaga dyracak.

Həqim bası qedəndən sonra, hacı içəri daxil olyb kızında başka halət qerdu, kız dyryb libasını qejinib şad və qulər uzlə əjləşmişdi: atasını qerən təq dyryb kabagına jeridi:

—Sabahın xejr olsyn ata! Həqim bası by qun mənə bir qezəl dərman verdi, içən təq cəmi mərəzlərim rəf' oldy. Indi daha heç bir agrıjan jerim jokdyr, əzum də bilmərrə salamatam.

Hacı Qamjab sevinmiз qedib arvadına xəbər verdi. Arvat da o saat dyryb kızının janına jujurdu. Kızını sag və salamat qerub dedi:

—Jok by dərman iзi dejil, dunən mən qedib imamzadada зam jandırdım. Imamzada mənim kızıma qəməq elədi. By mə'cizdur. Dərman bir qundə mərizi sagáltmaz.

Kız da qulərəq anasının səzunu təsdik etdi.

Bir kədər bizim məmləqətimizin imamzadalarından sizə sejləsəm ejib eləməz. Sonra jenə mətləbə qeçəriq.

—Byjyryn oda bası.

—Bizim məmləqətdə bir qənt və bir зəhər tapa bilməzsiniz qi, orada bir neçə imamzada olmasın. Bir balaca on min əhalidən ibarət olan зəhərdə on altı imamzada var. Hansı bir зəhərə qedib xəbər alsanız qi, imamzada haradadyr fevrən bir imamzada jok, neçəsini qestərəcəqlər. Siz bilirsiniz qi, bizim məmləqətin əhalisi kədim zaman atəзpərəst idi. By səbəbdən də hər зəhərdə və qəntdə bir və ja neçə atəзqədə var idi.

Xalk islamı kılınc zoryna kəbyl edəndən sonra da əz ata-baba dinindən busbutun əl çəqməq istəməjib və atəзqədələri əldə saklamak uçun hər birinə bir imamzada adı kojyblar.

Kədim dinin asarı indi də dyryr. Məsələn indi də eзidə bilərsiniz:

O qeruqən ajə and olsyn, ja by çıraga and olsyn, ja by janan ocaga and olsyn, ja o qunə and olsyn və iləx.

Hətta camaat qeçmiз atəзpərəstliq ajinini indi də Məзəddə Imam Rizanın baзının ustundə icra edir.

Kədim zaman qun çıkanda, ony зejpyr, təbil və zinc ilə istikbal edirdilər, həmçinin qun batanda da ony ha belə musajəət edirdilər. Hali-hazırda by ojyn Imam Riza məscidinin minarəsində çıkır, hər qun minarənin baзında zinc təbil və зejpyr ilə qunu istikbal və musajəət erirlər.

Bir kədər də зəhərlərimizdən sejləjim.

Bizim vətənin зəhərinə jakınlaзanda bəjuq bir hasar və darvaza qerəcəqsiniz. Darvazalar qecələr baglanır və subhdən axзamadəq açıkdyr. Зəhərə daxil olanda kabakca bir



bəjuq mejdan qerəcəqsiniz qi, ona «ərq» dejirlər: by mejdana neçə ədəd Зah Təhmasibdən kalmıз toplar kojylyb və topların içində qejərçinlər jyva tiqiblər. Зəhərin ortasında da bir mejdança qerəcəqsiniz qi adına «səbzi mejdan» dejirlər. Byrada quldən, çiçəqdən və agaçdan da qerməq olyr; by mejdan əhalinin sijahət jeridur. Зəhərlərin quçələri iqi cərqə kyry divardan ibarətdur. Nə bir pəncərə, nə bir balkon quçəjə bakmaz. Əqər bynlar evlərin birində tapılsa, jəkin bilərsiniz qi, xarici evidur. Divarlarda xırdaca dəriçələr var, hər kapıdan bir çəqiç asılıb, çəqiçlə dəkkulbab edirsən. Elə qi, kapı açıldı, daxil olyrsynyz bir dəhlizə.

Dəhlizin bir kapısı saga və o birisi soladyr, qiзiləri kapıların birindən «biryn»a və kadınları o biri kapıdan «əndəryn»a byrakırlar. Əndəryna ja biryna daxil olanda hər tərəfdə bir behiзt qerursunuz: byrada hər bir sahıbxana əz səlikəsini qestərir. Fəvvarələr, hozlar, dunjanın hər bir jerindən toxymy ja agacı qətirilmiз qullər, kəfəslərdə cur-bə-cur okyjan kyзlar, agaçların arasında tovyslar, rənq-rənq kanatlarını açmıз qezinməqdədur; xulasə belə bir bagçaja qirən daha bir də oradan çıkmak istəməz: əndəryn bagçasında kadınlar və birynda qiзilər rahat asydə qəzib vakt qeçirirlər.

Kadınlar jəkin bilirlər qi, bir nəfər naməhrəm nə onların uzlərini qerə bilər və nə səslərini eзidər. Odyr qi, orada hər nev' libas qejməq, hətta libassız da qəzməq cajizdur, çok vakt kadınlar libaslarını çıkardıb hoyzda çimirlər. Ev sahıbından savajı bir nəfərin əndəryna qirməqə ixtijarı jokdyr.

Bir belə ev də hacı Qamjabın var idi. Onyn bagçasının tə'rifi dillərdə sejlənirdi. Hətta Xydajar xan qibi зəxs də onyn bagçasına bənd olmyзdy.

Axзam Qəhərtac əndəryn bagçasına sijahətə çıkdı. Qunduzdən anasından bir kədər cəvahirat da alıb əzunə zijnət vyrmyзdy. Bagçada urəqi dəjunərəq dolanıb, və'də olynmyз saatı qezləjirdi; ata və anası onyn səlamətliqə çıkıb bagçada qəzməqindən daha зad olyb heç bir bədquman etməjirdilər.

Muəjjən vaktda quçə kapısı uç dəfə vyryldy. Neqər qəlincə Qəhərtac əzunu dəhlizə atıb kapını açdı. Əmi oglysy joldaзları ilə bahəm dyrmyзdylar.

Əlini Fərmanın əlinə verib cəld qetdi.

Jatmak vaktı jakınlaşanda hacı Qamjabın arvadı kızını jatmaga çagırmak uçun bagçaja çıkdı.

—Aj kız, Gəhərtac jatmak vaktıdyr, jorgan-dəşəqdən təzəcə dyrybsan sojyk dəjər.

Anası hərçi səslədi, Gəhərtacdan cavab qəlmədi, bagçanı başdan-başa qəzib kızını tapmadı. Muztərib halətdə kajıdıb kızın itməqinin xəbərini ərinə jetirdi.

Hacı Qamjab namazını kyrtarıb jatmak istəjirdi. Xəbəri eşidən qibi nəqərlərin hamısını ajaga kalkızdı. Kızın Fərman ilə kaçdıgını jəkin edib, bir baş kardaşı Ibrahımın evinə qetdi.

Ibrahım kapının døjulməsini eşidib sojynçak qedib açıb, hacı Qamjabı qørəndə təəccub etdi.

—Kardaş by qecə vaktı xejirdurmu? Sən qi, qunduz də mənim evimə qəlməzsən indi nə vake' olybdyr?

—De qørum oglyn Fərman haradadyr?

—Fərman əzan vaktı joldaşları ilə qetdi, kapı døjuləndə də mən quman etdim qi, qələn odyr.

—Hara qetdiqindən sənə bir søz deməsdimi?

—Xejir mən onyn hara qedib qəldiqini soryşmaram. Øz qejfinə bir adamdyr, haraja qejfi istəsə qedir.

—Mənim kızım da evdən kaçıb, jəkin Fərman harada isə kızım da oradadyr; məl'yn bihəja, binamys! Mən ony døşumə çəqib əlinə maja verib adam eləməq istəjirəm, amma o məni rusvaji-cihan eləjir. Mən Xydajar xana nə cavab verim. Xydajar xan aləmi tarumar edəcəq.

Hacı Qamjab søjlənərəq qetdi. O qecə subhə dəq şərəri dolanıb quman qedən evlərin hamısına tokynyb, nə Gəhərtacdan, nə Fərmandan bir xəbər dyta bilmədi.

Sabahı qunu şəhərin hər jerinə həmçinin ətraf qəntlərə adam saldırıb kızının ja Fərmanın jerini øjrənib xəbər qətirənə beş min tumən ən'am və'd elədi. By xəbəri eşidib şəhərin tamam biqarları, avaraları, casys donyna qirib itənləri axtarmaga məşgyl oldylar.

Neçə qun ciddi aktarış qetdisə də bir səmərə hasil olmadı.

***

Axşam hacı mirzə Əhməd-aganın evində neçə nəfər ə'jan əjləşib, aga ilə søhbət edirdilər. Pişxidmət daxil olyb, işarə ilə aganı çagırdı. Aga çıkdı.



—Nə var nə xəbərdur?

—Bir xəbər jokdyr, bir nəfər oglan bir kız ilə sizin himajətinizə kaçıblar.

—Kızı qəndər əndəryna oglana mənzil ver əjləşsin: konaklar qedəndən sonra tədbir elərəm.

Pişxidmət «bə çeşm!» dejib qetdi, aga da kajıtdı konaklarının janına.

Hacı mirzə Əhməd aganın evi «bəst» hesab olynyrdy. Hər bir cani, kan təqən, jol qəsən qi, divan əlindən kaçıb onyn evinə qirməqi øzunə mumqun elədi, daha hər bir divan sijasətindən øzunu ejmən hesab edirdi.

Bir polis nəfərinin, bir xanın, bir haqimin, hacı mirzə Əhməd aganın evində adam çıkartmaga hunəri jok idi. Bəstə qi, qirdi—kyrtardı. Hacı mirzə Əhməd aganın xanimanı kədim zamandan mukəddəs bir məqan hesab olyrdy.

Hacının atası və babası həmçinin nufyz sahıbı muctəhidlərdən olyblar... Cəmi əhali hacı mirzə Əhməd aganı mukəddəs hesab edirdi. Hətta belə danışırdılar qi, qyja aga çətin məsələlərin həlli uçun qecə jarısı bir xəlvət otaga çəqilib orada pejgəmbər ilə søhbət edib fitva alır.

Aganın xusysi məvacibxor acentələri hər jeri dolanıb, belə xəbərləri byrakırdılar və avam xalk da by acentələrin søzlərinə bavər edirdilər.

Siz jəkin soryşacaksınız qi aga bir belə pyly haradan alırdı qi məvacib ilə acəntələr də saklajırdı.

Aga heç qəsdər bir kran pyl almaz idi. Onyn øzunun dev lətinin, sərvətinin, əmlaqının nə həddi var idi, nə hesabı; neçə juz qənt aganın əmrinə tabe idi. Şəhərdən on-on beş fərsənq qənara sag-sol qøz işlədiqcə aganın əmlaqı idi. Ilxılarının, kojyn və kara-mal surulərinin hesabını bilən jok idi. Aganın pambyk, ərzak və xəşqubar qarvanının başı-ajagı mə'lym olmajırdı. Agaja barabar heç bir xan heç bir mulqədar ola bilməz idi. Xydajar xan qibi dəvlətli xanlar aganın mukabilində heç hesab olynyrdylar.

Indi bir belə əmlaq və sərvəti aganın haradan aldıgını ərz eləjim. Bagışlajın baş agrısı olyr:

Əmlaqın bir hissəsi babalarından irs kalıbdyr, kalanını aga øzu ələ qətiribdur. Ancak nə øzu, nə balaları by əmlaqa bir gryş verməjiblər. Əmlaqın bir parası «vəddiməzalim» uçun aganın ixtijarına verilibdur. «Rəddi-məzalim»—jə'ni

məzlymlara pajlamak. Bir nəfər sərvətdar vəfat edəndə qərursən ryhynyn rahətliqi uçun vəsijjət edir qi, onyn pylyny və əmlaqının mədaxilini «rəddi-məzalim» etsinlər, by da qərəq şəriət tərikilə ola. O dyr qi, onyn icrasını hər adama tapşırmak olmaz. Tapşırırdılar aga cənablarına, aga da mədaxili alıb cibişdəni-şərifinə oturyrdy.

Rəddi-məzalim şərtləri də by jolda ona qəməq verirdi, çunqu şər'ən rəddi-məzalimə tə'jin olmyş malı, əhli-syvala verməq olmaz və pajlanması da qərəq xəlvət və camaat qəzundən yzak jerdə olsyn. Çamaatdan da bir nəfər cur'ət edib dejə bilməz idi qi, aga by jerdə xijanət edibdur. Ilavə bir neçə il byndan əkdəm aganın muridlərindən birisi ona juz min tumən pyl və bir kızını təhfə qəndərmişdi. Aganın əlindəqi əmlaqdan ildə azından beş juz min tumən mədaxil qəlirdi.

Cumə axşamları aganın xəzinəsindən fukəraja pyl pajlanardı. Neçə fəkir qəlsə hər birinə jarım kran pyl verilirdi. Belə qi, hər həftə fukəraja aga beş on tumən pyl pajlajırdı. Ilavə on qun məhərrəm ajında fukəraja çaj, kəhvə, kəndab verib mərsijə okydardı. By aganın camaata xarcı idi. Amma ə'jan və tuccar tez-tez aganın məclisinə muşərrəf olyb, muəttər pilov jejirdilər. Və aganın ryhani səhbətlərindən fejzijab olyrdylar.

Tuccardan və ə'jandan da hər şəxsin aganın evinə joly jok idi. Namaz kılmajanları, oryc dytmajanları, xumsu-zəqat verməjənləri aga kapısından içəri kojmaz idi. Camaatın, xusysən sərvətdarların xumsu-zəqatı və fitrəsi aganın mubarəq əlilə pajlanardı.

Bir nəfər firənq səjjahı bizim vətəni sijahət edərəq aga olan şəhərə qəlib aganı qərməq istədi. Agaja xəbər verəndə byjyrdy qi, zəhmət çəqib qələ bilər, onynla qəruşməq, Firənqistanın əhvalından və vəzijjətindən bir kədər xəbərdar olmak ejib etməz. Aga onyn qəlməqi uçun bir vakt tə'jin etdi.

Haman firənq səjjahı nagıl edərdi:

—Muəjjən vaktda arvadım ilə bahəm jetişdiq aganın kyllygyna. Bizi neçə otakdan qeçirib bir salonda əjləşdirdilər. Salon Avropa kajdası sandaljalar və masalar ilə muzəjjən idi. Salonyn o biri kapısı açılıb oradan bir nəfər ag ipəq libası qejinmiş qəzəl bir qişi daxil oldy. By aga idi. Mən və arvadım ajaga kalkıb ona tə'zim etdiq. Aga mənim janımca qəlmiş mutərcim vasitəsilə arvadıma dedi:



—Qərəq qi, sizin Firənqistanda kadınlar qişilərin ajaklarına kalkmazlar, əz adətiniz ilə rəftar edib zəhmət çəqməjin.

Aga əjləşib bir neçə dəkikə bizimlə səhbət edəndən sonra, byjyrdy kəhvə qətirsinlər.

Pişxidmət əlində kəhvə daxil oldy və kəhvədən ilavə Firənqistanın ən qəzəl liqərlərindən necə nev'ini masanın ustunə kojdy.

Aga təqlif etdi:

—Byjyryn! Mən sizin uzunuzdə hejrət əlaməti qərurəm. Amma hejrət jeri jokdyr: mənim janıma əcnəbi jerlərdən qələnlər az olmajırlar. Və mən də onları əz kajdaları ilə kəbyl etməqi vacib bilirəm. Aga əzu də bizimlə bahəm kəhvə içdi, amma içqilərə əl vyrmadı.

Firənq səjjahı belə danışırdı, amma bir para dili dinc dyrmajanlar başka şejlər səjləjirdilər.

Xulasə qeçəq mətləbə.

Konaklar qedəndən sonra aga pişxidməti çagırdı.

—O kız kaçıran oglanı mənim janıma qətir.

Fərman içəri daxil olyb agaja qəmal-ehtiram ilə tə'zim etdi.

—Oglan sən qimsən?

—Aga mən bakkal Ibrahımın oglyjam.

—Hacı Qamjabın kardaşı.

—Deməli sən Hacı Qamjabın kardaşı oglysan. Çok qəzəl. Hacı Qamjab jaxşı qişidur... mə'min, dindar... Qətirdiqin kız haradandyr.

—Aga qətirdiqim əmim hacı Qamjabın kızıdyr. Biz yşaklıkdan bir jerdə bəjujub axırda bir-birimizə məhəbbət jetirdiq. By qunlərdə əmim onyn Xydajar xanın oglyna verilməsinə razı olyb, Xydajar xandan nişan kəbyl etdi. Kız və mən səzləşib sizin pənahınıza qəlmişiq; ja bizi biri-birimizə jetirin, ja əmr edin iqimizi də sizin kapınızda kyrban qəssinlər.

—Jok ogyl belə danışma. Vakti qi, sən by kapıja pənah qətirmişsən məramına çatacaksan. Dejirlər: «Əmi oglilə əmi kızının qəbini qəjdə qəsilib». Qet jenə əz mənzilində rahat ol, mən hacı Qamjabı da, Xydajar xanı da saqit elərəm, mənim xahişimin mukabilində onlar səz danışmaga cur'ət etməzlər.

Fərman şad-xurrəm mənzilinə kajıtdı.

***

Fərman qedəndən sonra hacı mirzə Əhməd aga otagında bir kədər o baз, by baзa qedib Fərmanın və Qəhərtacın qələcəq xoзbaxt qunlərini qeзunun kabagından qeçirirdi və xəjalında dejirdi:

—Iqi sevqilinin biri-birinə jetiзməqlərinə səbəb olmak bəjuq savabdyr. Koj dunjada istirahət ilə əmur surub mənə dyaqy olsynlar.

By jerdə gəflətən aganın baзına bir зejtan fiqri qəldi.

—Jok belə dejil! Firsəti fəvt eləjən akil dejil divanədur. Belə firsət heç vakt ələ duзməz! Gələt eləjir Fərman, baзını daзa dəjur Xydajar xan! Kızın niqahını əzumə okyjacagam. Hacı Qamjabın sərvətindən qeçməqmi olar?

Səhər aga adam qəndərib hacı Qamjabı huzyryna istədi.

Hacı Qamjab haman saat qəlib aganın kyllygyna daxil olyb salam verdi.

—Əlejqəs-salam hacı, byjyr əjləз.

—Kyllygynyzda ajak ustundə də dyra bilərəm aga!

—Jok qəl janımda əjləз.

Hacı Qamjab ədəblə dizi ustundə əjləзdi.

—Hacı dejirlər sənin uçun bir hadisə uz veribdur, nə olan iзdur?

—Bəli kyrbanın olym-duzdur, nə-inqi hadisə bir bədbaxtlık uz veribdur. Mənim bir bivec kardaзım və kardaзımın da bir avara ogly var. Mənim də əzunuzə mə'lymdyr qi, bir parça sizin dyanızın bərəqətindən çərəqim var. Heç qəs çərəqinin dagılmagını istəməz. Mənim həmiзə fiqrim by idi qi, kardaзım oglyny dəзumə çəqim və bircə nəfər sizdən ejib olmasın kızımı da ona verim. Hərçi sə'j elədim, kardaзım oglyny avara joldaзlarından və bisərupa qəzməqindən çəqindirə bilmədim. Axır labud kalıb kızı Xydajar xanın oglyna namzəd elədim. Indi o bihəjə kardaзım ogly—kız ilə nə vasitə ilə səzləзib bilməjirəm—bir axзam ony qəturub qedibdur, neçə qundur qi, axtarmamıз jer kojmamıзam. Kızla Fərman bir daз olyb bir qor kyjyja duзublər.

Aga qulumsundu.

—Dediqin «qor kyjy» mənim evimdur. Həkikət byraja duзən çıkmaz. Sənin kızın və Fərman byradadyrlar. Səni byraja də'vət etməqdən gərəzim bydyr: kızının niqahının Fərmana cari olmasına riza verirsənmi?



—Aga siz mənim kızımın baзını qəsməqə sahıbi-ixtijarsınız. Amma mən ony o bihəjaja verməjəcəqəm. Ilavə mən Xydajar xana səz vermiзəm, ondan niзan kəbyl etmiзəm.

—Bəs belə olan syrətdə sən mənim bir təqlifimi kəbyl elə: dejirlər «xejrilumyri əvsətuha»1). Sən kızın mənim əzumə mənqyhə olmasına riza ver, byna səzun nədur? Xydajar xanın cavabını mən rəd edərəm.

By təqlifi qəzətləməjən hacı Qamjab fevrən cavab verə bilməjib dajandı. Bir az fiqir edib xəjalında dedi:

—Aganın təqlifini rəd etməq axmaklıkdyr. Mənim uçun nə təfavut edər, mənim ticarətim hacı mirzə Əhməd agadan artıkrak mənfəət aparar. Mirzə Əhməd aganın əmlaqı Xydajar xanın təqlifindən çok, sərvəti ondan artık, xanın pambyk və ərzakını icarəjə qəturuncə aganınqını qəturərəm. Ilavə hacı mirzə Əhməd aga muctəhidin kajnatası olmak bəjuq зərafətdur, hər adama mujəssər olası rutbə dejil: sonra uzunu agaja tərəf çəndərib dedi:

—Aga mən bajak sizə ərz etdim qi, mənim kızımın baзını da qəsməqə ixtijarınız var, necə məsləhət bilirsiniz elə də edin, mənim səzum jokdyr.

—Çok qəzəl, çok mubarəq! Qərurəm jorynyksan, qet dincəl, sonra niqah cari etməli zaman sənə xəbər verərəm.

Hacı Qamjab tə'zim edib çıkdı, evinə qəlib qəzləri jolda kalmıз arvadına dedi:

—Arvat doзab almıзık bal çıkıb, kız mirzə Əhməd aganın evindədur. Aga da kızın qəbinini əzunə qəsməq istəjir, gəribə bydyr qi, mənim rizamı soryзyr, qyja qi, mənim qəjnəqim də by iзə razı dejil.

Arvat byny eзidəndə az kaldı dyryb evin içində ojnasın! Əz-əzunə dejirdi: byndan sonra nə-inqi Qamran xanın arvadı, hətta tamam ə'janın arvatları məclislərdə mənim ajagıma dyracaklar. Koj qəzu qəturməjənlərin canları çıksın.

Səhər hacı mirzə Əhməd aga piзxidmətini çagırıb əmr etdi.

—Qet o bəstə qirən oglana xəbər ver qi, mən hacı Qamjab ilə qəruзub onynla lazım olan səhbəti elədim. Indi xatircəm, qedib evində otyra bilər, heç qəsin onynla iзi olmajacak. Vaktında mən ony çagıraram.

1) Hər iзdə e'tidal jaxзıdyr.

Fərman nə kədər jalvardı, qi ona əmisi kizilə qerusub bir iqi səz danışmaga imqan versinlər, piəxidmət kəbyl etməjib dedi:

«Agadan icazə jokdyr».

***

Fərman evlərinə kajıtdı. Bir neçə qun atasına qerunməməqə çalışdı. Axır bir qun təsadufən atasına rast qəldi. Atası başladı oglyna məzəmmət etməqi:

—Bala jaxşı iş qermədin hacı Qamjab nə kədər olsa, sənin əmindur onyn urəqinə dəjməq heç bir lajık iş dejil idi.

Xusysən qi, axır vaktlarda əminin mejli sənə tərəf dənmuşdu: min tumən sənə maja verdi qələcəqdə jenə qeməqlni və'd etdi. Adam qərəq ışık qələn jerə barmak durtməsin.

Ogly başını aşaga salmış cavab verdi:

—Ata daha qeçmiş ola: hacı mirzə Əhməd aga əmimi çıgırıb razı etdi. Əmim də səz jok məndən incijibdur bir neçə qun mənim uzumə bakmajacak, axırda jenə hacı mirzə Əhməd aganı vasitə salıb barışarık.

Fərman bir jandan belə sejləjirdi, bir jandan da urəqinə kara fiqirlər qəlirdi.

—Xyb, hacı mirzə Əhməd aga əmim ilə qerusəndən sonra nə uçun məni evindən rəd elədi və nə səbəbə mənə əmim kızı ilə qerusməqə icazə vermədi. Joksa aga əmimin xahişmə qerə Xydajar xanı çagırıb kızı ona tapşıracak? Əlbəttə mən hara, Xydajar xan hara. Xydajar xan zənqin mulqədar, xırda bir padşah, mən isə bir fəkir oglan. Xydajar xanın kapısında juz nəfər mənim qibi neqər var.

Bir qun əmisinin kapısından etərqən qerdu çokly at, katır ənva və əşjası ilə juqlənib jola salınmakdadyr. Neqərdən juqlərin hara qedəcəqini xəbər alıb bildi qi, by juqlər hacı Qamjabın kızına cehiz verilib, hacı mirzə Əhməd aganın evinə qedir. Fərman by əhvalatdan jenə bir şej başa dusməjib axırda belə xəjal etdi:

—Jəkin hacı mirzə Əhməd aga Qəhərtacı təntənə ilə əz evindən qeçurtməq istəjir.

Fərman by xəjal ilə evə kajıdarqan dostlarından birinə rast qəldi. Dosty Fərmanı bir nev' şadman qerub jəkin etdi qi, əhvalatdan xəbəri jokdyr. Ony dajandırıb bir kədər danışdırandan sonra, dedi:



—Kardaş dejəsən sənin əhvalatdan xəbərin jokdyr.

—Hansı əhvalatdan?

—Şəhərin tamam tuccarı by qun hacı Qamjabın evində cəm' olyb Qəhərtacın cehizinin sijahisində isbat vucyd etmişdilər.

—Byndan xəbərim var, çunqu indi by saat cehizi hacı mirzə Əhməd aganın evinə qendərilməsini qerdum.

—Sən byndan məjər bir şej duşunmədin?

—Mən quman etdim qi, aga kızı əz mubarəq əlilə qeçurtməq istəjir.

—Aganın mubarəq əli sınsın. Cəmi zəhmətimiz hədər qetdi.

—By nə səzdur danışırsan.

—Qerunur əhvalatdan xəbərin jokdyr. Cənab hacı mirzə Əhməd aga kızı əzunə mal eləjib.

—By nə axmak səzdur danışırsan?

—Axmak sənsən qi, cəmi şəhərdə danışılan əhvalatdan bixəbərsən.

By xəbəri joldaşından eşidəndə Fərmanın başı qicəllənib tamam şəhər başına dolandı. Joldaşilə «xyda hafiz» etməjib divanə qibi evə qəlib atasını da mə'jys divara kısılmış qerdu. Gejzli papakını başından çıkardıb jerə çırpdı.

—Byndan sonra qimə inanasan? Aja jerdə qejdə bir inanmalı şej varmı? Qimə e'tibar edəsən vakt qi dunjada bir təmiz kəlb vucyd jokdyr? Hacı mirzə Əhməd aga adını muctəhid kojyb nəjə inanır? Qimə inanır qimə ibadət eləjir? Allahamı? Hansı allaha? O allah haradadyr?

Ibrahım oglyny dajandırdı.

—Bala qufr danışma, aga eşidər by saat sənin kətlinə fərman verər. Səni camat parça-parça edər hər tiqəni bir əldə edər.

—Aga byndan da artıkmı mənim kətlimə fərman verəcəq byndan sonra mən dunjada jaşajamı biləcəqəm? Koj məni əldursunlər, cəhənnəmə qora əldursunlər, təq aganın qonly şad olsyn, məni koj tojynda kyrban qəsdirsin. Amma mən açık dejirəm, hər jerdə də dejəcəqəm, ajagıma dəmir çarık qejib əlimə dəmirdən asa alıb, tamam jer uzunu dolanıb dejəcəqəm: o adını muctəhid kojyb amma jalançıdyr, fasikdur, onyn al-

lalı kızıl oquzdur, ona səcdə eləjir. Dini, şəriəti, namysyny dunjanı jeməq uçun əlində alət eləjibdur, əqər o mukəddəs vucyddyr, nejləjir bir belə malı, əmlaqı? O cəmi elmlərə bələddur, vakt qi, o belə işlərə ikdam edir qerunur qi, o heç bir şejə inanmajır və heç bir inanmalı şej jokdyr, belədur: qejdə və jerdə bir inanmalı şej olsa idi, o elminin qucilə bilərdi. Nə qejdə nə jerdə heç bir şej jokdyr. Jer ilə qejun arası adlarını muctəhid və ryhani kojan əmmaməli, əbalı-kəbalı həşərat ilə jırtıcı kyrtlarla dolydyr. Sənin muctəhidin aga mirzə Əhməd də canavarların, kan içənlərin bejuqudur. Lə'nət onyn uzunə onyn o nyrani sakkalına!

Atası jenə oglyny dajandırdı.

—Ogyl amandyr məni də bəlaja tokyjarsan.

—Mən by qundən byradan yzaklaşacagam. Daha byrada kalmak mənim uçun mumqun dejil. Baş qeturub dijar-bə-dijar qəzib, by vəhşilərin əməllərinə xalkın dikkətini çəndərəcəqəm. Ja məramıma çataram. ja bir jerdə əlub kalaram.

Fərman evdən çıkdı. Atası vahiməjə duşub dejirdi:

—Aj aman oglanın başına hava qəlib, qedib hər jerdə hacı mirzə Əhməd aganın hakkında artık-əqsiq sezlər danışacak, axırda camaat qəlib mənim evimi də zir-bə-zir edəcəq.

Az qeçmədi, Fərman kajıdıb koltygynda bir dəst libas qətirdi. Libas dərviş libası idi. Libası qejinib atasına dedi:

—Ata by qecə mən şəhərdən qedəcəqəm. Hər bir jerdən «dərviş Naqam» adı eşitsən bil qi, sənin oglyndyr. Mən by ad ilə dunjanı sijahət edəcəqəm. Bilməjirəm harada eləcəqəm. Ancak arzı edərdim qi, eləndə qezlərim o fasik hacı mirzə Əhməd aganın divarına baksın və divarın dalında mənim qibi dərdə mubtəla qezəl bir vucydy hiss eləsin. Ata mən qedirəm. Amma sənə vəsijjətim bydyr, inanma bynlara: onların danışıkları hamısı rija və jalandyr, allahları və şəriətləri də jalandyr, əqər jalan olmasajdı, ezləri ona itaət edərdilər. Dunjada sərvət jıgmak, ləziz xorəq jeməq, behiştə bənzər otaklarda, kəsirlərdə əjləşib nazənin sənəmlərdən həz aparmaga çalışmazdılar həmişə tə'rif etdiqləri axirət uçun çalışardılar, indi mən jəkin etmişəm qi, o axirət də jalandyr. Dogry olsajdı hamıdan kabak ryhanilər dunjaja fani dejənlər, dunja malına



cəhənnəm ody dejənlər ony axtarardılar. Salamat kal ata, mənim fiqrimi eləmə. Xydahafiz!

***

Qəhərtac uçun xusysi bir muzəjjən otak tə'jin olynmyşdy. Kadınlar ony ihatə edib hacı mirzə Əhməd aganın əmrinə itaət edərəq, ona hər nev' məhəbbət qestərib, hər bir xahişlərinə fevrən əməl edirdilər. Heç bir tərəfdən kızın kejdi jok idi, ancak əmisi oglilə qeruşməq ona mumqun olmadıgı urəqini sıkırdı. By xahişini bir dəfə izah elədi. cavabında dedilər qi, oglan sənin əmin oglyn da olsa, nə kədər qəbin qəsilməjib naməhrəmdur başka bir jerdə sizə qeruşməq mumqun də olsa, aganın evində belə xilafi-şər' əmələ jol verilməjir. Əcələ etməq nə lazım, by qun sabah qəbinin qəsilər, ondan sonra ez sevqilinə kovyşarsan.

Bynynla kızı saqit edirdilər. Hətta hacı Qamjabın aganın janına qəldiqini kıza xəbər verirdilər.

Bir axşam kadınlar cəm' olyb Qəhərtacın başına, əllərinə, ajaklarına xına jakdılar. Subh aganın bagçasında vake xusysi hamama aparıb jyjyndyrdylar. Sonra məşşatə qəlib onyn kaşlarını hamvarladı. O qunu axşama dəq kadınlar Qəhərtacın bəzəq-duzəqinə məşgyl oldylar. Axşam bir dəstə toj libası qejindirib başına bir kırmızı zərli cyna 1) ertub, iqi nəfər kadının muşajəətilə başka bir otaga qeçirib, orada xejir-dya verəndən sonra təq kojyb çıkdılar.

Kız təq otakda əjləşib sevqilisini qezləjirdi. Ajak səsi qələndə urəqi dejunub dedi.

—Indicə Fərman kapıdan qirəcəq.

Nihajət kapıdan daxil olan hacı mirzə Əhməd aga ezu idi.

—Sən çok xoş qəlibsən by evə qezəl kız kədəm əziz eləjibsən.

Kız aganın sezundən bir şej anlamajıb, ancak ony xejir-dya verməqə qəlmiş hesab etdi. Amma elə qi, aga əmmaməni çıkardıb bir jana kojyb, əbanı da mismardan asıb, qezləri kızarmış kıza tərəf hucym etdi, kız allandıgını dyjdy. Və bir dəfə ycadan kışkırıb jıkıldı.

1) Tənzif.

Hacı mirzə Əhməd aga təəvişə duəub, cəld çıkıb bəjuq arvadını səslədi; istədi həqim bası mirzə Mehdi uçun adam kaçırtsın bəjuq arvat razı olmadı.

—Cavan kız yəagıdyr, belə əejlər çok olar. Bir iqi qun atılıb duəub jerində əjləəəcəq.

Bir neçə dəkikədən sonra, tamam əndəryn kadınları Qəhərtacın ətrafına cəm' oldylar, hərçi sə'j edirdilər ony əzunə qətirə bilmədilər, bə'zən bir iqi dəkikəliqə ajılıb ətrafına bakıb, dybarə kıəkırıb jıkılırdı.

kadınlar subhə dəq jatmajıb, Qəhərtacla məəgyl olyrlar. Subh Qəhərtac ajıldı, kadınların nəsihətinin və ony jola qətirməqə çalıəmaklarının mukabilində Qəhərtac ancak bir səz dejirdi:

—Evimizə qedəcəqəm!

Adam qəndərdilər, Qəhərtacın anası qəldi. Kızını by halətdə qərub, baəladı əárp-ha-əarp dizlərinə dəjməqə:

—Aj kız by nə ojyndyr çıkardırsan? Allah sənə elə bir baxt açıbdyr qi, jatsan jykyna da qirməz, o axmak bambılıda sən nə qərubsən? Sənin muctəhid hacı mirzə Əhməd aga qibi ərin var. By saat hamı xanzadaların, əahzadaların kızları sənə həsəd aparırlar. Əəhərin tamam ə'janı bir-bir qəlib sənin atana qəz ajdınlıgı verirlər. Məni bəjənməjən Qamran xanın arvadı dunən əzu mənim janıma qəz ajdınlıgına qəlmiədi. Sənin by hərəqətin atanı da, məni də jerə çırpar. Indi bəlqə hacı mirzə Əhməd aganın gejzi dytyb, sənin kolyndan dytyb atdı bajıra. Ondan sonra sənin atan camaat içinə çıka bilərmi, mən Qamran xanın arvadının və sajir arvatların uzunə necə bakaram. Sənin əz hakkında arvatlar iqi min səz danıəıb agzı qəjçəqliq eləjəcəqlər. Necə ola bilər qi, mən sag qəzumdən təmiz kız bəsləjim, onyn hakkında olmajan səzləri arvatlar danıəıb abırısını təqələr. Aglını baəına cəm' elə kızım. Hacı mirzə Əhməd aga əzunu padəahdan jykarı dytyr, amma sən elə qiəini xoəlamajıb, bir bambılının dərdini çəqirsən. Ony da bilqilən qi, atan sənin by iəindən xəbərdar olsa, qəlib jəkin baəını qəsəcəq.

Qəhərtac əzunu qəməqsiz qərub, mat-mutəhəjjir divara japıədı.



Anası bir az da nəsihət edib dyryb qetdi. Kalan arvatlar da onyn anasının səzlərini təsdik etdilər.

***

Məmləqətin əəhərlərinin hamısında dərviə Naqamın tə'rifi səjlənirdi. Dogrydan da tə'rifə lajık idi. Kara yzyn saçları çijninə təqulmuə, yca bojly kara iri qəzlu qəzəl səsli dərviə Naqam bazara çıkanda hər bir jerdən onyn tamaəasına cəm' olyrdylar.

Onyn okydygy sajir dərviələrin kəsidələri dejil idi, by baəka bir əivə ilə mejdana çıkmıədı: okydygy Xəjjamın rubailəri, Sə'dinin gəzəlləri və Kaanının kəsidələri idi. elə qi

> Çi gəm zibiquləhi-qaşiman qulahi-mənəst
> Zəmin bisatu, dəru-dəət barqah mənəst 1).

Okyjanda hər tərəfdən «afərin» sədası qəlirdi.
Ja Sə'dinin gəzəlijjatından

> Əz hərçi mirəvəd suxəni-dyst xoətərəst
> Pejgami-aəna nəfəsi-ryhi pərvərəst 2).

Əyr ustə okyjanda çok adamın qəzundən jaə akırdı, çunqu hamı onyn dərdindən xəbərdar idi.

Hacı mirzə Əhməd aganın onynla rəftarı hamının urəqini nə-inqi bir hacı mirzə Əhməd aganın, tamam ryhani sınıfların əlejhinə dəndərmiədi. O da byndan iştifadə edib daha da camaatı ryhanilərdən ryqərdan eləməqə çalıəırdı və muvəfək də olyrdy. Çunqu əlindəqi dəlillər çok məhqəm idi.

Əəhərlərin ə'janından, tuccarından hər biri, dərviə Naqamı qərməqi əzu uçun fəxr hesab edirdi. Məclislərdə qəzəl gəzəllər və kəsidələr okyjandan sonra, əirin səhbətlər ilə camaatı məəgyl edərdi. Və səz arasında çok jerdə əyxlyga salıb ryhanilər əlejhinə təbligat aparırdı.

—Bakın birisi adını muctəhid kojyb, namaza dyranda onyn dalında o kədər adam iktida baglajır qi, məscid camaatı dytmajır, axırda çıkıb mejdanda camaat namazı kılır jol ilə qedəndə muridlər dalınca kojyn surusu qibi qedirlər. O da

1) Papaksızamsa nə gəm qəj mənim qulahımdyr.
By jer bəsat mənə, çəl də barqahımdyr.
2) Dostyn nə səjləsə səzu xoşdyr bilənlərə
Dostyn sifarişi məzədur ryhə bir qərə.

bakıb ondan ləzzət aparır. Camaatın malı, devləti, irzu-namysy hamısı onyndyr, ona da by lazımdyr. Rijasət zəhri hamısını zəhərləjib, murid jə'ni kojyn surusu jıgmak uçun həmişə biri-birilə mubarəzədədurlər by onyn o bynyn qufrunə hequm verir: biri adını usyli kojyr, biri şejxi kojyr, biri agaji kojyr, biri şiə kojyr, biri sunni kojyr. Birisi də çıkıb dejir, sizin hamınız jalan danışırsınız. Sizin dininiz də qehnəlib ezunuz də qehnəlmişsiniz. Mən ezum bəhaullaham, allahın ryhijəm. Sizin qehnəlmiş Kyranınızın karşısına qejdən mənə bəjan nazil olybdyr, Cəbrajil mənə hər qun vəhj qətirir.

Bynların hamısı rijasət mubarəzəsi, camaatın kojyn qibi jynyny kırkıb, sərvət kazanmak mubarəzəsidur. Joksa hamısının danışdıkları jalandyr, ibadətləri oryc və namazları hamısı xalkı sojmak uçun hilə və təzvirdur, onlar heç bir şejə inanmajırlar, və elm ilə də jəkin ediblər qi, heç bir şej jokdyr.

Birdən qerəndə qi, by səhbət camaatın bir parasına naxoş qəldi. O saat səhbəti dəjişib bir neçə lətifə sojlərdi. Sonra da başlajıb bir qezəl gəzəl okyjyb xalkın jenə məhəbbətini ozunə tərəf çəqirdi və dejirdi:

—Camaat, mənim danışıklarıma artık papej 1) olmajın, mən dərviş babajam və mə'lymdyr qi, dərvişin dini olmaz.

Belə danışıklar ilə sezlərini malalajırdısa da, jenə urəqlərə bir şəq toxymy səpirdi.

Dərviş Naqam neçə sənə Iranı, Hindistanı, Kafkası, Turqustanı dolandı. Hər jerdə ezunu şad-xurrəm lətifəqy qestərdi. Amma qecələr subhə dəq Qəhərtacın fərakında davam edəməjib, aglar idi. Odyr qi, qun qundən artıklajıb zəifləşirdi.

Axırda sinəsindən kan qəlməqə başladı. Daha səsində qehnə lətafət kalmadı. Nəfəsi qedəldi. Bynynla belə janıklı kəsidələri kylak asanlara bejuq tə'sir edərdi.

Bir neçə vaktdan sonra dərviş Naqam bilmərrə ortalıkdan çıkdı. Qimisi ony elmuş, qimisi Hindistana və ja mualəcə uçun sajir bir jerə qetmiş bildi. Ancak hamı onyn mejdandan çıkmasına əfsys edib, dybarə salamat kajıtmasını arzı edərdi.

1) Papej olmak—fiqir verməq, dikkət jetirməq deməqdur.



Məclislərdə onyn səhbəti danışılırdı. Xanəndələr onyn qusələrini əzbər edib, məclislərdə okyjyrdylar. By da jenə dərviş Naqamı camaatın qezunun kabagına qətirərdi.

***

Qəhərtac hacı mirzə Əhməd aganın evində ən əziz vucyd, arvatların zubdəsi olmagına bakmajarak, iqi qun salamat qerunəndə uç qun bəstərdə jatırdı. Mirzə Mehdi həqim başı həftədə iqi uç dəfə ona jolykyrdy.

Dərviş Naqam uç il idi qetmişdi. Qəhərtacın mərəzinin istəqlisinin fərakından nəş'ət etdiqini heç qəs quman etməjirdi. Ancak bir təq Mirzə Mehdi onyn mərəzinin səbəbini bilirdi.

Fərman bir dəkikə Qəhərtacın qezunun kabagından qetməjirdi. O ezunu həmişə həbsdə hesab edirdi. Hacı mirzə Əhməd aga ony başdan ajaga cəvahirata dytmyşdy, janında neçə nəfər qəniz onyn hər bir xahişinə fevrən əməl edirdilər. Bynynla belə qecələr çıkıb əndəryn bagçasında qənizlərilə bir jerdə qəzəndə, qənizlərə dejərdi:

—Siz məni byrada bir kədər təq kojyn, sonra mən çagıranda qələrsiniz.

Qənizlər qedirdilər. Qəhərtac qul agacının janında əjləşib, gəm dəftərini açırdı. Lejli təq ajdan, bylytlardan sevqilisinə sifarişlər qendərirdi.

Dejirdi:

—Jəkin mən tamaşa etdiqim aja by halda Fərman da tamaşa edir. Nə olardı by dəkikə kanatlanıb, kyş təq yçyb ezumu ona jetirə idim. Aja qerəsən mən çəqdiqim gəmdən o da çəqirmi? Joksa indi ezunə bir jar tapıb Qəhəratcı bilmərrə ynydybdyr? Jok..... Fərman vəfalı oglandyr. Onyn əlindən namərd iş qəlməz. Aja qerəsən o da mənim qibi dərdə mubtəladyr, ja salamatdyr? Mən Fərmanın məriz olmasını istəmərəm, koj salamat olsyn, indi qi, məndən ajrı duşubdur mən eləndən sonra duşəndə bir mənim kəbrimin ustunə qəlsin. Ezumlə qerusməq ona mujəssər olmajacak, bəlqə kəbrimlə qeruşə. Joksa nainsaf hacı mirzə Əhməd ony mənim kəbrimin ustunə də kojmajacak?

Birdən jasəmən agacının arasından Fərmanın hejqəli qezunə qerundu, ycadan kışkırıb jıkıldı. Qənizləri onyn sə-

sinə jujurə-jujurə qəlib uzunə sy səpib, ajıldıb otagına apardılar.

O qundən Qəhərtacın mərəzi qəldiqcə əiddət edib, bəjuq iztiraba səbəb oldy.

Həqim bаəı mirzə Mehdi qundə uç dəfə qəlirdi, və ona dərman jazırdısa da bilirdi qi, bir tə'sir bagıəlamajacak. Onyn dərdinin bircə dərmanı var idi, ony da qi, əczaxanadan almak mumqun dejil idi.

Bir dəfə hacı mirzə Əhməd aga, mirzə Mehdini otagına çagırıb dedi:

—Mirzə Mehdi by qəlin uç ildur naxoədyr, hər dəfə siz qəlib onynla qəruəub qedəndən sonra bir iqi saat haləti өzunə qəlib qulur, danıəır, sonra jenə haləti təgjir tapıb jıkılır. Onyn mərəzinin sizə mə'lym olmasına əəqqim jokdyr, bəlqə siz onyn dərdinə mualəcə tapmajırsınız. Əqər məsləhət bilirsiniz jazım padəahın xusysi təbibi qəlsin, lazım olsa Firənqistandan mən təbib qətirməqə hazıram. Ancak Qəhərtac salamata çıksın.

Mirzə Mehdi Qəhərtacın mərəzinin səbəbini deməqdən çəqilib, ərz etdi qi, padəahın təbibini də'vət etməqinizə mənim sөzum jokdyr, ancak Qəhərtacın mərəzi mualəcəpəzir mərəzlərdən dejil.

Hacı mirzə Əhməd aga by səhbətdən sonra mirzə Mehdini jola salıb, mə'jys otyrdy. Aga Qəhərtacın sagalmasının kejdində dejil idi. Juz elə Qəhərtac, ondan da qөzəl agaja zevcə olmaga fəxr edərdilər. Ancak Qəhərtac өzundən sonra bir zurrijjət kojmajıb elərsə, tamam hacı Qamjabın devləti əldən çıkar. Aganı təəvisə salan by fiqir idi.

***

Bir subh dərban əəhərin darvazasını açıb qərdu qi, bir nəfər cavan dərviə jerə jıkılıb ah-zar edir. Dərban onyn qim oldygyny, nə jerdən qəldiqini nə və nijə belə ahu-zar etdiqini xəbər aldı. Dərviə cavab verdi:

—Yzak jerlərdən qəlirəm. Naxoəam çok pijada jol qəlib jorylmyəam. Bir cir'ə 1) mənə sy ver.

Dərban sy qətirib verdi. Dərviə syjy içib xəbər aldı.

—Sən by əəhərin adamlarının hamısını tanıjırsanmı?

—Məəhyrlarının hamısını tanıjıram.

Zərqəran məhəllәsində hacı Qamjabı tanıjırsan?

1) Bir jydym sy deməqdur.



—Ony qim tanımaz?

—Onyn Ibrahım adında bir kardaəı var ony da tanıjırsan?

—Əlbəttə tanıjıram.

—Mənim daha jeriməqə halətim jokdyr, lutf elə məni onyn evinə apar.

Ibrahım səhər dyryb duqanına qetməq istəjirdi. Quçəjə çıkanda qərdu qi, əəhər dərbanı bir nəfər mərizin koltygyna qirib, onyn evinə tərəf qətirir, məriz dərviə libasında yzyn saçlı, kırma sakkal, cavan bir oglandyr, amma cavanlıgına bakmajarak baəının və sakkalının tuqlərinin jarısı agdyr. Jakınlaəanda qөzlərindən Fərmanı tanıdı.

—Aj ogyl nijə belə olybsan? Hanı sənin mevzyn kamətin, hanı sənin kırmızı janaklarин, qulər dodakların, enli sinən?

Ibrahım oglyny sinəsinə basıb baəladı uzundən qөzundən өpməqə. Ibrahımın sakkalı aəaga qөzlərindən sel qibi jaə akdı. Ymydy bircə oglyna idi, dejirdi:

«Qedər qөrmədiqi jerləri sejr edib, dərdi-gəmi ynydyb kajıdar».

Indi oglynyn bədəni bir dəri bir sumuqdən ibarətdur: sinəsi batıb, sifəti saralıb, çijinləri kalkıb, cavanlar zubdəsi Fərmandan bir kyry qəlqə kalıb.

Dərbanın qөməqilə Fərmanı evə qətirib, jatak salıb jatırdılar.

Dərban qetdi. Ibrahım o qunu duqana qetməqi mevkyf edib oglynyn janında kaldı.

—Bala joksa sənə sojyk dəjib. Sənin uçun by saat darçın çajı piəirərəm. Içib tərlərsən. Dyrarsan ajaga.

Ibrahım istədi kalkıb ocak duzəldib çajdanda sy kajnatsın, Fərman ony dajandırdı.

—Lazım dejil ata! Uç ildən artıkdyr qi, səni qөrməjirəm, otyr bir kədər səhbət eləjəq. Darçın çajı mənim dərdimə dərman ola bilməz. Qөrursənmi ata sənin kardaəın və millətin baəının jejəsi hacı mirzə Əhməd aga məni nə halətə saldılar.

By jerdə Fərmanı өqsurəq dytyb, bir kədər өqsurəndən sonra tər basıb zəifləəib baəladı çətinliq ilə nəfəs çəqməqə.

Bir az tokdajandan sonra dedi:

—Indi ata halətimi qөrursən, məni belə elədilər. Qundə bir ləqən sinəmdən kan qedir. Ony da qөrəcəqsən. Bircə de

qөrum әmim aga ilә kolıym olmakdan xoзnyddyrmy? Qөhәrtac aganın evindә өzunu xoзbaxtmı hiss edir. Koj xoзbaxt olsyn, jaxзı candyr. Әmimә deqilәn heç olmasa mәndәn ona salam jetirmәqi kәbyl etsin. Joksa o nainsaf byny da kәbyl etmәjәcәq. Koj Qөhәrtac bilsin qi, mәn өlmәqimi hiss edib өzumu vәtәnә jetirdim qi, heç olmasa axır nәfәsimdә qөzum onyn evinә baksın.

Ibrahım dedi:

—Qөhәrtac da sәn qedәndәn naxoзdyr, әmini qөrsәn tanımazsan, xufәtdәn gussәdәn mukәvvaja dөnubdur, mirzә Mehdi hәqim baзı qundә neçә dәfә aganın evinә qedir. Hәtta aga jazıb padзahın xusysi tәbibini qәtirtdi, o da bir neçә qun kalıb qetdi. Dejirlәr mәrәzi vәrәmdur, sagalmajacak.

—Qөrunur vәfalı imiз, mәn dә ony hәmiзә vәfalı bilirdim. Afәrin ona!

Fәrman qөzunu jymyb hyзa qetdi vә hyзda qyja sevqilisini qөrub onynla danıзırdı, atası Fәrmanın hәzin sәsini eзidirdi.

Lәzzәt ruxi-jar dilistandan
Candyr bilәn ej drig candan
Canım qedәli bәsi zamandyr
Cismimdәqi imdi өzqә candyr
Mәndә olan aзqar sәnsәn
Mәn xyd jakam, ol qi, var sәnsәn

Bynyn dalınca hevlnaq kalkıb әlini kabaga yzadıb sәslәndi.

—Qetmә, qetmә bir kәdәr dajan!

Atası xәbәr aldı:

—Aj ogyl qim ilә danıзırsan.

Cavab әvәzinә Fәrmanı өqsurәq bogmaga baзladı: bir kәdәr өqsurәndәn sonra, әlinin birilә agzını jymyb iзarә ilә lәqәn istәrdi. Atası lәqәni jakın qәtirәndә Fәrman әlini agzından çәqdi. Lәqәn laxta kanla doldy.

Indi Ibrahım oglynyn daha dirilmәjәcәqini jәkin edib, hөqurtu ilә agladı. Fәrman ony saqit elәdi:

—Aglama ata qәrәq belә dә olajdı. Koj әmimin qonly зad olsyn.



Ibrahım cәld evdәn çıkıb konзydan tәbib mirzә Hejdәrkylyny çagırdı. O da qәlib bakıb, baзını bylyjyb, bir nusxә jazıb qetdi.

—By dәrmanı çaj qibi dәmlәjib qundә uç dәfә verin iзsin.

Subh Ibrahım oglynyn otagına qirib halәtini bir az jaxзılaзmıз qөrdu.

—Ata by qun halәtim çok jaxзıdyr dejәsәn sagalacagam. Өzumdә heç azar hiss elәmәjirәm. Bir az mәnә sut ver acmıзam.

Ibrahım sevinәrәq sut qәtirib verdi. Fәrman iзtiha ilә sutu içdi, sonra atasına dedi:

—Ata iqi qundur mәn qәlmiзәm, dost-aзnalarımın mәnim qәldiqimdәn xәbәrlәri jokdyr. Mәn dә onları çok qөrmәq istәrdim.

Bir saatdan sonra Fәrmanın joldaзları ony ihatә edib by uç ilin muddәtindә vake olmyз hadisәlәrdәn sөhbәt edirdilәr. Fәrman da dәrviз sifәtindә dunjanı dolaзdıgından, qөrduqu өlqәlәrdәn, зәhәrlәrdәn, adamlardan danıзırdı. Bir azdan sonra Fәrman danıзmakdan jorylyb qөzlәrini jymdy.

Joldaзları ahәstә dyryb qetdilәr. Vә Ibrahıma dedilәr:

—Qөzlәrin ajdın olsyn, Fәrman az çәqmәz dyrar ajaga.

Fәrman bir kәdәr jatıb sonra bәrq өqsurәq ilә ojandı. Atası onyn sәsini eзidib içәri daxil oldy. Fәrmanın halәti diqәrqyn 1) idi. Atası xәbәr aldı:

—Aj bala, bir az byndan kabak qi, jaxзı idin indi nә oldy sәnә?

Fәrman cavabında dedi:

—Ata iзim xarabdyr: qet bir mirzә Mehdi hәqim baзını mәnim janıma qәtir.

—Ogyl, mirzә Mehdini qәtirmәq uçun çok para lazımdyr. Mәndә o kuvvәt nә qәzir, jenә qedib mirzә Hejdәrkylyny çagıra bilәrәm.

—Ata sәn qet deqilәn Fәrman qәlibdur, çok xahiз elәjir qi, onyn janına qәlәsiniz, mәnim adımı eзidәndә qәlәcәq. Sәn qet ata!

Mirzә Mehdi hakikәt qәldi. Içәri daxil olyb qeндәn Fәrmanın sifәtinә bakanda onda өlum niзanәsini ajdın qөr-

1) Başka cur dәqişilmiş demәqdur.

du. Sonra qəlib Fərmanın jasdıgının janında əjləəib nəbzini dytdy.

—Artık azarın jokdyr, korkma sənə ozum mualəcə elərəm tezliq ilə sagalarsan.

Mirzə cibindən qagız və kələmdan çıkarıb, nusxə jazmak istəjəndə Fərman ony dajandırdı:

—Zəhmət çəqməjin mirzə! Mənim mərəzim dərmanpəzir dejil, sizə zəhmət verməqdə mənim əzqə nijjətim var. Siz bir vakt mənə bəjuq jaxəılık eləjibsiniz. İndi o jaxəılıgın nəticəsi mənim urəqimcə olmadı onda siz mukəssir dejilsiniz, mənim kismətim belə oldy. İndisə mənim sizdən bircə xahiəim var: siz Qəhərtaca mualəcə edirsiniz, zəhmət çəqib onyn janına qedib, əvvəl məndən ona salam jetirin, sonra ona mənim halətimi necə qərursunuz, elə də səjləjin, ona dejin qi, onyn fərakında dərmansız dərdlərə duəub, indi can verirəm. Çok istərdim ələn vakt onyn uzunu qərub can verejdim. Çifajda by mənə mujəssər olmajacak. Ondan çok tavakka eləjirəm, libasından bir əej mənə qəndərsin. Bəlqə heç olmasa onyn kokysyny ondan alım.

Mirzə Mehdi Fərmanın xahiəinə əməl etməsini və'd etdi.

***

Səhər İbrahım oglynyn otagına qirib adi syal verdi.

—Necəsən bala?

—Jaxəıjam ata! Mirzə Mehdi indicə qərəq qəlsin.

Fərmanın qəzu kapıda idi, bir dil ilə dejirdi.

—By qiəi jenə qəlmədi? Joksa mən by arzıma da çatmajıb ələcəqəm. Bir azdan sonra mumqun qəldiqcə ycadan səsləndi.

—Jok arzıma çatmajınca əlməjəcəqəm!

Atası xəbər aldı:

—Aj bala o arzı nədur?

—Bir əej dejil ata, bir çık kapıja qər, mirzə Mehdi qəlirmi.

Fərmanın butun bədəni iztirabda idi. Hər beə dəkikədə atasını quçəjə qəndərirdi.

—Ata çık qər qəlməjir qi?

İbrahım evə kajıdıb, mirzə Mehdinin təərif qətirməqinin xəbərini verdi. Fərman başını jasdıkdan qəturub dəəəqin ustundə əjləədi.



Mirzə Mehdi daxil olyb salam verdi.

—Byjyryn mirzə əjləəin. Qəhərtacı qərdunuzmu?

—Bəli qərdum.

—Onda izin verin mirzə, qəzlərinizdən əpum. Mirzə Mehdi əjildi. Fərman neçə dəfə onyn qəzlərindən əpdu. Sonra xəbər aldı.

—Sifariəimi jetirdinizmi mirzə?

—Necə qi, demiədin elə də jetirdim. By da sənə Qəhərtacın sokatı.

By səzlə əbanın altından bir qəjnəq və bir ədəd kan ləqəli dəsmal çıkardıb Fərmana verdi.



Fərman dəsmalı və qəjnəqi neçə dəkikə ijləjib dedi:

—Oxkaj, Qəhərtacın kokysy qəlir. Sizdən çok razıjam, həqim baəı. Hejf qi, by mərəzdən mən dyrmajacagam, joksa sizin xəcalətinizdən lajıkınca çıkardım.

Sonra qəjnəqi kalkızıb bir kədər janıklı nəzər ilə bakıb odly bir ah çəqdi.

—Sevqili dilbərim. Illərcə fərakını çəqməqdən canım dərdə duədu, qecə-qunduz dilimin əzbəri, əəm' təq qəzumun kabakında əe'lə verən, parlak yldyz təq jollarımda mənə rəh-

bər olan, qecələr aja bakanda qərduqum sən idin. Θlumum jetisdiqini hiss edib axır nəfəsimi sənin jakınlıgında verməq uçun θzumu byraja jetirdim. Didarım mənə mujəssər olmadı. Indi sənə ən jakın olan qθjnəqinə bakıb, səni vida edirəm. Əlvida dilbərim!

By sθzlə qθjnəqi bagrına basmıs həmisəliq qθzlərini jymdy.

Həqim bası kalkıb qθzlərinin jasını silib ahəstə otakdan çıkdı.

***

Haman qun səhərin hamı məscidlərinin minarələrində çəqilən minacatlar muctəhid hacı mirzə Əhməd aganın zevcəsinin vəfatını səhərin əhalisinə e'lan elədi.

Qθhərtac axır nəfəsində əri̇ni janına çagırtdırıb dedi:

—Məni bagıslajın aga, mən uç ildur sizin evinizdə qəniz qibi dolanıb bir dəfə cur'ət edib sizə bir sθz deməmisəm və sizdən bir xahis etməmisəm, ancak sizin syalınıza cavab verib, sizin məramınız ilə rəftar eləmisəm. Dərmansız dərdə dusub, bircə dəfə də olsa dərdimin nə oldygyny kısıldıgımdan sizə sθjləməmisəm. Siz və həqim bası mənim dərdimin nə oldygyny bilirdiniz, ancak dərman tapmakdan aciz idiniz. Indi mənim axır nəfəsimdur, sizdən mənim bircə xahisim var. Ona əməl etsəniz, mənim ryhym sizdən xosnyd olar: mənim kəbrimi Fərmanın kəbrilə janası kazdırın, onyn da axır nəfəsidur.

Hacı mirzə Əhməd aga sθz verdi. Qθhərtac əlini yzadıb ərinin əlini dytyb dodaklarına tərəf çəqməq istədiqdə, bogazından bir parça kan qəlib aganın əlinin ustunə dusdu. Qθhərtac bihiss jıkılıb canını tapsırdı.

Səhərin əhalisi Qθhərtacın dəfni və izhari-tə'zijət uçun aganın evinə cəm' oldylar. Bθjuq bir təntənə ilə rəsmi-dəfni icra elədilər. Amma aga verdiqi sθzə əməl etməjib, Qθhərtacı θz həjatində dəfn etdirdi.

***

Oda bası heqajəsini kyrtarıb supurqəçini qθstərib dedi:

—By zalım biri-birini urəqdən sevən iqi cavan vucydyn fənaja qetməsinə səbəb oldy. Oda basına dedim:



—Daha qifajətdur. Qedəq, koj by byrada supurqəsini çəqsin. Ona hər nə olyrsa hakkında olyr, sənin by heqajətin mənim urəqimi odlajıb jandırdı. Qedəq byradan!

Hacı mirzə Əhməd agadan ajrılandan sonra məni bir qəsalət basıb, daha cəhənnəmi sijahət etməq həvəsindən dusdum. Θz-θzumə dedim:

—Mən məqər byndan da bir agır mukəssir qərəcəqəm? Bynyn mukabilində qθrduqlərimin dunjada dytdykları islər hamısı ysak ojyncagı mənzələsindədur. Daha bəsdur evə kajıtmak lazımdyr. Uzumu oda basıja dytyb dedim:

—Əmi ogly bagıslajın sizə çok zəhmət verdim və θz zəhmətiniz ilə məni çok məmnyn etdiniz, indi axır zəhmət çəqib məni byradan çıkardın. Daha byrada kalmaga mənim tabım jokdyr.

Oda bası istədi mənə sajir məqanları da qθstərsin, bojyn kaçırtdım; o da mənim inadımı qθrub dala kajıdıb cəhənnəmin çıkacagına tərəf jonəldi.

By halda qθrdum cəhənnəm əhli hamısı biri-birinə dəjib bir kıskırtı kopybdyr qi, cəhənnəm az kalır partlajıb dagılsın. Oda basıdan sorysdym:

—Nə xəbərdur?

Dedi:

—Mən də sənin iqbi, indi by saat xəbər biləriq.

Bir az qedib bakdık qi, qθz islədiqcə cəhənnəm adamla dolydyr, hamısı kıskırır. Camaatın əqsəri dejir:

—Oda istəməjiriq, qəlməsinlər, onları biz aramıza kojmajacagık, onlar bizə cəhənnəmdə də rahat jatmaga imqan verməjəcəqlər.

Camaatın az hissəsi bynlara nəsihət eləjir.

—Kardaslar kojyn qəlsinlər nə isiniz var. Onların sizə heç bir əzijjət və azarları tokynmajacakdyr. Onlar da byraja sizin qibi janmaka qəlirlər.

—Istəməjiriq qəlməsinlər, koj qedib hansı cəhənnəmdə janacaklar jansınlar, biz onları θz cəhənnəmimizə kojmajacagık.

Bakdım nəsihət edənlərin içində qθrduqum bəjlər, axyndlar və sajir millətlər ryhaniləri və ə'janı hamısı səfa-səf dajanıb qələnləri qθzləjirlər.

Cəhənnəm əhlinin birindən xəbər aldıķ:

—Oglan, by nə əhvalatdyr?

Dedi:

—Nə olacak? Rys koзyny cəhənnəmə dolyr. Byndan sonra ďərəq hamımız cəhənnəmdən baз qəturub kaçak, bakdıķ qi, rysyn kazakları, saldatları, əfsərləri, jaranalları dəstə-dəstə cəhənnəmə dolmakdadyrlar. Axyndlar əllərini qəjə kalkızıb, qeзiзlər əllərində xaç bynlara dya edirlər; bəjlər, agalar, dvorjanlar hamısı iqi kat olyb qələnlərə baз əjirlər. Jaranallardan biri səsləndi.

—Camaat saqit olyn! Ə'la həzrət imperator ə'zəm iqinci Nikolaj həzrətləri lutf edib cəhənnəmə byjyryrlar.

Oda baзına dedim:

—Əmi ogly tez olyn byradan məni çıkardın, bynlar qi, byraja sahıblandılar, məni baзpyrtsyz qərub əzijjət edəcəqlər. Tez olyn kardaзım!

***

By jerdə diqsinib əzumu jatagımda qərdum. Dost-aзnam kojyb qetdiqim kərar əjləзib mənim qəlməqimə muntəzir idilər.

Cənab ag molla mənim kajıtmagımı hamısına axзamdan xəbər vermiзdi.

Joldaзlar bir-bir baзladılar. mənə syal verməqə.

Dedim:

—Danızmakla kyrtarası dejil. Qərdüqumu jazaram; siz də, cəmi marak edənlər də okyjarlar. Cəhənnəmdə çok gəribə зejlər və adamlar qərdum, hamısını jazacagam. Ancak axır vakt padзah da jaranallarilə bahəm oraja qəldi. By nə iзdur?

Dedilər qi bəs indi zəhmətqeзlər hequməti əz əllərinə alıb padзahı cəmi xahanları ilə bir jerdə qəndərdilər cəhənnəmə.

Rəfiklərimdən birisi dyryb pəncərəni açdı dedi:

—Byjyr tamaзa elə qər nə halətdur?

Pəncərədən bakanda зəhərin tamam evlərinin ustundə kırmızı bajraklar qərdum. Cavanlar dəstə-dəstə əllərində kırmızı bajraklar, qəzinib hər nev' nəgmələr okyjyrdylar qi, mən əsla eзitməmiзdim.



Rəfikim dedi:

—By nəgməjə proletar nəgməsi dejərlər. Qeçmiзdə bynları xəlvətdə okyjyrdylar, indisə 'quçələrdə ycadan okyjyrlar. Qeçmiзdə by nəgməni okyjanları dytyb bogyrdylar, Sibirə qəndərirdilər, kazamatlarda çurudurdulər. Indisə iзlər baзkadyr. Hətta zəhmətqeзlər cəhənnəmi, behiзti də jok e'lan ediblər. Çunqu behiзtə lajık olanlar da, cəhənnəmə lajık olanlar da, cəzalarını zəhmətqeзlər əlindən by dunjada alırlar.

Dedim:

—Məjər kırkca qunun muddətində bir belə təbəddulat vake olybdyr?

Ag molla cavabını verdi:

—Sizə belə qəlir, mən və məhtərəm mirzə Koзynəli də cəhənnəmin hər qununun dunjanın kırk qununə barabar oldygyny sizə səjləmədiqmi? Indi siz qedəli tamam dərt il və neçə ajdyr.

Dedim:

—Çok qəzəl biz də əz cəzamıza muntəzir olarık.

## QITABLN IÇINDƏQILƏR

Bir neçə səz . . . . . . . . . . . . . 3

Mukəddəmə . . . . . . . . . . . . . 5

Cəhənnəm . . . . . . . . . . . . 33